# İFES-in 2006-cı ildə Azərbaycanda keçirdiyi ictimai rəy sorğusu üzrə suallar və cavablar

Azərbaycan vətəndaşları USAİD tərəfindən maliyyələşdirilən və İFES tərəfindən həyata keçirilən sorğuda iqtisadiyyat, demokratik təsisatlar və qadınların hüquqları kimi məsələlər barədə öz fikirlərini ifadə etmişlər. 2006-cı ildə keçirilmiş bu ictimai rəy sorğusu 2001-ci ildən bəri İFES-in Azərbaycanda keçirdiyi beşinci sorğudur. İFES-in Azərbaycan üzrə ölkə direktoru qeyd edir ki, sorğunun keçirilməsində məqsəd Azərbaycan ictimaiyyəti və daha geniş beynəlxalq ictimaiyyətin maraq dairəsində olan bir çox iqtisadi, siyasi və ictimai məsələlər üzrə ictimai fikrin istiqamətlərini müəyyənləşdirməkdir. Konkret nəticələr bütövlükdə sorğunun ümumi konteksti çərçivəsində nəzərdən keçirilməlidir.

O həm də qeyd edir ki: "Bəzi konkret nəticələrin ayrı-ayrılıqda maraqlı olmasına baxmayaraq, həmin nəticələrin daha geniş bir fikir istiqamətinin tərkib hissəsi olmasını qəbul etmək zəruridir. Düzgün interpretasiya olunarsa, bu sorğuda Azərbaycan vətəndaşlarının qiymətləndirdiyi qurum və məsələlərə inandırıcı bir baxış təqdim edilir." Blesinqton əlavə olaraq zəmanət verir ki, "sorğu İFES tərəfindən müstəqil olaraq həyata keçirilmişdir və hökumət sorğunun nə konseptuallaşdırılmasında, nə hazırlanmasında, nə həyata keçirilməsində, nə də açıqlanmasında heç bir rol oynamamışdır."

Ölkədəki sosial-iqtisadi və siyasi vəziyyət barədə fikirlərdən əlavə, hesabatda vətəndaşların siyasət və seçki proseslərinə marağı və onlarda iştirakı; vətəndaşların demokratiya, yerli idarəçilik və mülki cəmiyyət barədə fikirləri; qadınların hüquqlarına və eləcə də, mətbuata münasibət və mətbuatdan istifadə haqqında fikirləri də öz əksini tapmışdır.

Yerlərdə sorğu işlərini İFES-in sifarişi əsasında "SORGU Sosial Araşdırmalar Mərkəzi" 2006-cı ilin 17 noyabr – 20 dekabr tarixləri arasında həyata keçirmişdir. Sorğuda Azərbaycan əhalisinin ölkə üzrə bölgüsü nəzərə alınmaqla 1600 nəfər iştirak etmiş və eyni zamanda təxminən bərabər sayda kişi/qadın və şəhər/kənd əhalisi üzrə respondentlərin fikirlərinə müraciət edilmişdir. Sorğu nəticələrinin yanlışlıq nisbəti müsbət və ya mənfi 2.75 faiz olaraq hesablanmışdır. 2006-cı il üzrə Azərbaycandakı ictimai rəy sorğusu barədə ətraflı məlumatları İFES-Azərbaycanın internet səhifəsindən (www.ifesaze.org) əldə etmək mümkündür.

Sorğu nəticələrinin açıqlanmasından sonra İFES-ə çoxlu suallar daxil olmuşdur. Tez-tez müraciət edilən belə sualların bəzilərinə aşağıdan cavab tapmaq mümkündür.

1. **İFES 2006-cı ildə keçirdiyi ictimai rəy sorğusu zamanı hansi meyarlara əsaslanaraq məhz Sorğu şirkətinin xidmətlərindən istifadə etmişdir?**

   İFES öz ictimai rəy sorğularının keçirilməsi üçün 2002-ci ildən bəri Sorğu şirkəti ilə müqavilə bağlamışdır. Sorğu şirkəti digər üç şirkətin də iştirak etdiyi tender nəticəsində rəqabət şəraitində seçilmişdir. Sorğu şirkətinin etibarlılığına və onun təqdim etdiyi yüksək keyfiyyətli işə əsaslanaraq, İFES həmin şirkətlə əməkdaşlığını davam etdirmişdir. Sorğu Dünya Bankı və BBC də daxil olmaqla, bir çox beynəlxalq mənşəli müştərilər üçün sorğular keçirir. İFES, ictimai rəyin öyrənilməsi sahəsində Sorğu şirkətinin Azərbaycanda ən bacarıqlı şirkət olduğuna inanır.

2. **Hökumət sorğu prosesində iştirak etmişdirmi?**

Azərbaycan hökuməti 2006-cı ildə İFES-in keçirdiyi ictimai rəy sorğusunun nə konseptuallaşdırılmasında, nə hazırlanmasında, nə həyata keçirilməsində, nə də açıqlanmasında heç bir rol oynamamışdır. İFES Sorğu təşkilatının etbarlı və qərəzsiz bir təşkilat olduğuna və sorğunun heç bir icra hakimiyyəti orqanı və ya digər hökumət orqanına məlumat verilmədən və ya onlarla məsləhətləşmədən keçirildiyinə inanır.

3. **Sorğu təşkilatının hökumətlə əlaqəsi varmı?**

Sorğu təşkilatının hər hansı bir işçisinin və ya rəhbər şəxsinin Azərbaycan hökuməti ilə əlaqədar olması haqqında İFES-də hər hansı bir məlumat mövcud deyil.

4. **İFES sorğunu hansı regionlarda həyata keçirmişdir?**

Sorğu Azərbaycanın hər bir regionunda həyata keçirilmişdir. Sorğuda istifadə edilməsi üçün, hər bir region üzrə şəhər və kənd tipli yaşayış məntəqələrinin qarışığı ixtiyari olaraq seçilmişdir. Hər hansi bir regionda böyük şəhər tipli yaşayış məntəqəsi olduqda həmin yaşayış məntəqəsi avtomatik olaraq sorğuya cəlb edilmişdir.

5. **Respondentlər necə seçilmişdir?**

Sorğuda iştirak edən respondentlər hər bir şəhər və kənd tipli yaşayış məntəqsi üzrə ixtiyari qaydada seçilmişdir. Başlanğıc nöqtəsi olaraq, müsahibə götürən şəxslərə yaşayış məntəqələri üzrə ixtiyari qaydada seçilmiş ev və ya binalar təqdim edilmişdir. Sonrakı ailələrin seçilməsi üçün yenə də ixtiyari seçmə qaydasından istifadə edilmişdir. Hər bir ailədə yetkinlik yaşına çatmış respondentin ixtiyari qaydada seçilməsi üçün Kiş metodundan istifadə edilmişdir. Respondentlərlə müsahibələr şəxsən keçirilmiş və bir ailədə yalnız bir nəfərdən müsahibə götürülmüşdür. Seçilmiş şəxsin müsahibədən imtina etməsi və ya planlaşdırılmış gün ərzində digər işləri ilə məşğul olması halında onun yerinə ixtiyari qaydada başqa ailədən olmaqla digər alternativ şəxs respondent olaraq seçilmişdir.

6. **Sualların keyfiyyətinə necə zəmanət verilir?**

İFES-in Tətbiqi Araşdırmalar Mərkəzindəki mütəxəssislər sualların qərəzli olmamasını yəqinləşdirərək sorğunun tərəfsizliyini təmin etmişlər. Sualların tərəfsizliyini təmin etmək və sorğunu daha yaxşı strukturlaşdırmaq üçün tələb olunan hər hansı dəyişiklikləri müəyyənləşdirmək üçün, sorğu keçirilməzdən əvvəl bir həftə ərzində sorğunun ilkin sınağı keçirilmişdir.

İlkin sınağın keçirilməsindən əlavə, müsahibələrin həqiqətən keçirilməsini, seçilmiş sullara verilmiş cavabların həqiqiliyini və respondentlərin seçilməsi zamanı müvafiq nümunə prosedurlardan istifadə edilməsini yəqinləşdirmək üçün Sorğu şirkətinin rəhbərliyi də keyfiyyət yoxlamaları həyata keçirmişdir. Sorğu şirkətinin 60-dan çox həm Azərbaycan, həm də Rus dillərini (sorğunun keçirildiyi iki dil) mükəmməl bilən yüksək səviyyədə bacarıqlı işçi heyəti vardır.

İFES-in bu mətbuat açıqlaması ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin 111-A-00-03-00013-00 saylı qrantının (Azərbaycanda seçki ilinin təşkili layihəsi) şərtlərinə əsasən göstərdiyi maliyyə dəstəyi ilə həyata keçirilmişdir.